# Dövlət dəstəyi daimidir



**Vətən müharibəsində şanlı qələbəmizdən sonra ölkəmizdə həyata keçirilən tədbirlər sırasında şəhid ailələrinə və qazilərə, müharibə iştirakçılarına, müharibədən əziyyət çəkən vətəndaşlara dövlət dəstəyi xüsusi yer tutur. Bütün sahələrdə həmvətənlərimizin rifah halının yüksəldilməsi istiqamətində müxtəlif layihələr, proqramlar həyata keçirilir. Biz müharibədən çıxmış bir dövlət olsaq da, vətənimizin bütövlüyü uğrunda canlarını, qanlarını fəda edən insanlar daim dövlət qayğısı ilə əhatələnib. Sağlamlıqlarını torpaq uğrunda itirən qəhrəmanlarımıza, şəhid ailələrinə və əlillərə mütəmadi olaraq yeni mənzillər, avtomobillər verilir. Onların müalicəsi üçün reabilitasiya mərkəzləri açılır və lazım gələndə isə müalicə olunmaq üçün xarici ölkələrə göndərilirlər.**

Prezident İlham Əliyevin tez-tez müharibə iştirakçıları və şəhid ailələri ilə görüşməsi onun bu məsələyə xüsusi həssaslıqla yanaşmasının təzahürüdür. Ümumiyyətlə, istər şəhid ailələri, istər qazilərimiz, istərsə də müharibə veteranları üçün daim xüsusi və fərqli yanaşma olub. Ulu öndər Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə baxmayaraq ki, onda biz yenicə müstəqil olmuşduq, hələ iqtisadi imkanlarımız indiki dövrdən qat-qat aşağı idi, amma müharibədən zərər çəkmiş insanların maddi təminat, məişət, mənzil məsələlərinin həlli həmişə dövlətin prioritet məsələlərindən olub. Bu proses bu gün də davam edir. Ulu öndərin siyasi xəttinin davamçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən layihə və tədbirlər bu qəbildən olan soydaşlarımızın daim qayğı ilə əhatələnməsinə imkan yaradıb. Müharibədən dərhal sonra Prezident İlham Əliyevin Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə "YAŞAT" Fondunun yaradılması haqqında imzaladığı Fərman da bu humanist addımlardan biridir. "YAŞAT" Fondunun əməkdaşları ərazi bütövlüyümüzün bərpası uğrunda yaralananların və şəhid ailələrinin yaşadıqları ünvanlara üz tutaraq onların həyat şəraitinin yaxşılaşdırılması üçün tədbirlər görürlər. Fondun fəaliyyəti çərçivəsində müvafiq kateqoriyadan olan şəxslərin ehtiyacları qarşılanır. Müharibədən dərhal sonra yenə ölkə başçısının müvafiq fərmanı ilə yerli icra hakimiyyətlərində Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin yaradılması nəticəsində bu gün müharibə iştirakçıları, şəhid ailələrinin problemləri operativ şəkildə öz həllini tapır.

Bütün bunlar bir daha təsdiq edir ki, sosial cəhətdən həssas əhali qruplarının, o cümlədən əlilliyi olanların, şəhid ailələrinin, müharibə əlilləri və veteranlarının, mina qurbanlarının sosial müdafiəsinin gücləndirilməsi Prezident İlham Əliyevin sosial siyasətinin əsas tərkib hissələrindəndir. "Dövlət öz üzərinə nə düşürsə etməlidir və edəcək". Bu gün Dövlət Məşğulluq Xidmətinin həyata keçirdiyi özünəməşğulluq proqramları, digər qurumların təşkil etdiyi layihə və proqramlar da bu kateqoriyadan olan insanların məşğulluq və digər çətinliklərinin həlli üçündür. Bununla yanaşı, Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən mütəmadi olaraq şəhid ailələri və qazilərlə təşkil olunan görüşlər, onların sağlamlıq problemlərinin həlli istiqamətində atılan addımlar da onlara göstərilən qayğının təzahürüdür.

**Vüqar İSKƏNDƏROV,**
**Milli Məclisin deputatı.**

Respublika.- 2022- ci il.- 12 avqust.- S. 4.